# Möhtəşəm diplomatik qələbə

***Məlum olduğu kimi, bu il fevralın 14-dən 16-dək Almaniyada keçirilmiş 56-cı Münhen Təhlükəsizlik Konfransında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyan arasındakı açıq müzakirələr artıq bir neçə gündür ki, dünya mətbuatının gündəm mövzusuna çevrilmişdir. Əksər mətbuat orqanları hələ də "Prezident İlham Əliyevin möhtəşəm diplomatik qələbəsi", "Prezident dünya ictimaiyyətinin gözü önündə Paşinyanı aciz duruma saldı", "Prezident İlham Əliyev Münxen debatında ermənilərə tarixi və siyasi dərs keçdi", "Münxen debatı Prezident İlham Əliyevin parlaq siyasi qələbəsi kimi dəyərləndirilməlidir" və digər sərlövhəli məqalələrlə çap olunur.***



Etiraf etməliyik ki, həmin müzakirələr ilk növbədə Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində Azərbaycan Prezidentinin uğurlu xarici siyasətinin yeni mərhələsi kimi təqdim olunur. Münxen Təhlükəsizlik Konfransında Prezident İlham Əliyevin cavabları beynəlxalq auditoriyanın həm Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həqiqi mahiyyətini daha yaxşı anlamasına, həm də onun tarixi həqiqətləri təqdim etmək potensialının üzə çıxmasına imkan yaratmışdır. Müzakirələrdə İlham Əliyevin səsləndirdiyi fikirlər Azərbaycanın mövqeyinin getdikcə güclənməsinin, arqument bazasının möhkəmlənməsinin, təcavüzkar Ermənistanın isə mövqeyinin zəifləməsinin göstəricisi sayıla bilər.

Əvvəla, görüş zamanı intelektual müstəvidə iki lider arasında ciddi fərqlər aydın şəkildə nəzərə çarpırdı. İkincisi, İlham Əliyev Dağlıq Qarabağ münaqişəsinin mahiyyəti və tarixi ilə əlaqədar həqiqətləri daha aydın və arqumentləşmiş şəkildə dinləyicilərə və izləyicilərə çatdırdı. Ən əsası isə dövlət başçımız Azərbaycanın mövqeyini layiqincə müdafiə etməyə, daha sanballı dəlilləri ilə təcavüzkar dövlətin rəhbərini, demək olar ki, bütün arqumentlərdən məhrum etməyə, başqa sözlə desək, tərksilah etməyə nail ola bildi. Bu gün Ermənistanın siyasətçilərindən və ekspertlərindən tutmuş adi insanlarına qədər hamı Paşinyanın ağır məğlubiyyətini etiraf edərək, ona qarşı ən sərt ittihamlar irəli sürməyə başlamışdır.

Mən qətiyyətlə Münxen Təhlükəsizlik Konfransında açıq müzakirələrdə Prezident İlham Əliyevin çıxışını, gətirdiyi arqumentləri, Paşinyanın əlacsız vəziyyətə düşməsini Dağlıq Qarabağ münaqişəsi üzrə Azərbaycanın ədalətli mövqeyinin bütün dünyaya daha ətraflı çatdırılması sahəsində möhtəşəm addım hesab edirəm. Ölkəmizin və onun əhalisinin taleyi qüdrətli və etibarlı əllərdədir. Bu fikirlər, eyni zamanda, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli perspektivlərinə şamil edilə bilər və edilməlidir.

Məlum olduğu kimi, dəqiq və hədəfə dəyən faktlar səsləndirməklə cənab Prezident bir daha Dağlıq Qarabağın Azərbaycanın tərkib hissəsi olduğunu, Ermənistanın ölkəmizə qarşı işğalçılıq və etnik təmizləmə siyasəti həyata keçirdiyini beynəlxalq ictimaiyyətin diqqətinə çatdırdı. Ölkə başçımız Ermənistanın Azərbaycan ərazisinin 20 faizini işğal etdiyini və işğal olunmuş ərazilərdə mülki azərbaycanlılara qarşı etnik təmizləmə aparıldığını, Xocalı soyqırımı törədildiyini sübut edən təkzibedilməz faktlarla Paşinyanı faktiki nokaut vəziyyətinə saldı.

Prezident İlham Əliyevin Dağlıq Qarabağın əzəli Azərbaycan torpağı olması və münaqişənin yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll oluna biləcəyinə dair təqdim etdiyi beynəlxalq norma və prinsiplərə əsaslanan hüquqi bazanın qarşısında Paşinyan tutarlı heç bir arqument gətirə bilmədi.

Bir tərəfdən Dağlıq Qarabağın münaqişə tərəfi olduğunu, özünün silahlı qüvvələrə malik olduğunu deyən Ermənistanın baş naziri, digər tərəfdən də öz oğlu da daxil olmaqla Ermənistan vətəndaşlarının Dağlıq Qarabağda hərbi xidmət keçdiyini etiraf etdi.

Prezident İlham Əliyevin Münxen Təhlükəsizlik Konfransında səsləndirdiyi fikirlər ölkədə mənəvi ab-havanı, xalqın özünəinam hissini xeyli yüksəltdi.

***Sadir MƏMMƏDOV,***
***hüquq elmləri üzrə fəlsəfə doktoru***

Xalq qəzeti 2020.- 20 fevral.- S.4.